**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin**
**müsabiqə elan edilmiş vakant vəzifələri haqqında məlumat**

**Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsi, inspektor**
*İş yerinin ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə, Binəqədi şossesi 202*

*Qulluq funksiyaları:*
Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, dövlət proqramlarının icrası ilə bağlı təhlillər aparmaq, müvafiq təklif və hesabatları hazırlamaq;
Xidmətin fəaliyyətini tənzimləyən qanunvericilik aktların, təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrini hazırlamaq;
Normativ hüquqi aktların və digər qanunvericilik sənədlərin, beynəlxalq müqavilələrin, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hüquqi ekspertizasını həyata keçirmək;
Əməkdaşlar arasında hüquqi maarifləndirmə işini aparmaq;
İşgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: təhsil: hüquq, beynəlxalq hüquq ixtisasları üzrə ali təhsil, staj: dövlət orqanında hüquq sahəsi üzrə azı 3 (üç) il iş stajı, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə).

**Bakı şəhər qanunsuz miqrantların saxlanılması mərkəzi, inspektor-həkim**
*İş yerinin ünvanı:* Bakı şəhəri, Sabunçu rayonu, *Zabrat qəsəbəsi, Kürdəxanı şossesi*

*Qulluq funksiyaları:*
Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifə və iş bölgüsünə əsasən vəzifələri icra etmək;
Mərkəzdə yerləşdirilən şəxslərin tibbi müayinədən keçirilməsini və ilkin tibbi yardımın göstərilməsini təmin etmək,
Saxlanılma mərkəzlərində saxlanılan şəxslərin sağlamlığının mühafizəsi istiqamətində kompleks profilaktika, müayinə, müalicə, maarifləndirmə və digər tibbi tədbirləri həyata keçirmək;
Sanitariya-gigiyena və əks-epidemik rejimlərin tələblərinin yerinə yetirilməsi üzrə tədbirləri həyata keçirmək;
Qüvvədə olan qanunvericiliyi daim öyrənmək, işgüzar və peşə keyfiyyətlərini yüksəltmək, əmək və icra intizamına, etik davranış qaydalarına riayət etmək.
Vəzifənin tutulması şərtləri: təhsil: əsas (baza ali) tibb təhsili, staj: dövlət orqanında tibb sahəsi üzrə azı 2 (iki) il iş stajı, kompüter bilikləri: Microsoft Windows, Microsoft Office (orta-yüksək səviyyədə).

***Yuxarıda qeyd olunan vakant vəzifələrə iddia edən şəxslər miqrasiya sahəsinə aid müvafiq normativ hüquqi aktları, Azərbaycan Respublikasının qanunlarını bilməli, Azərbaycan haqqında ümumi məlumatlardan xəbərdar olmalı və funksiyalarının icrası ilə əlaqədar digər zəruri peşə-ixtisas biliklərinə malik olmalıdırlar.***

***Digər tələblər:***

***<u>problem həlletmə və qərarvermə</u>: problemlər qarşısında özünü itirməmək, problemin səbəbini, kökünü müəyyən etmək, məlumatlar və faktlar əsasında düzgün mühakimə yürütmək, onun həllinə obyektiv yanaşaraq həmin problemi həll etmək və düzgün qərar qəbul etmək qabiliyyəti;***

***<u>təşkilatçılıq:</u> ona tapşırılmış işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə əlaqədar özünün bilik və bacarıqlarını istifadə edə bilmək qabiliyyəti;***

***<u>şifahi və yazılı ünsiyyət:</u> fikir, rəy və şifahi nitq, yazışmalar və hərəkətlər vasitəsilə ifadə etmək qabiliyyəti;***

***<u>yaradıcılıq və təşəbbüskarlıq:</u> məsələlərin həlli və icrası üçün yeni təkliflər vermək, fikirlər irəli sürmək, onları həyata keçirə bilmək, gündəlik işlərdən əlavə işlər görməyə təşəbbüs göstərmək qabiliyyəti.***